**Respublika.** - 2024.- 2 noyabr. - № 242. - S. 8.

# İqlim jurnalistikası və "yaşıl lüğət" konsepsiyası

**Tacir Sadıqov**

**COP29 beynəlxalq iqlim sammitinə ev sahibliyi etmək Azərbaycanın xarici siyasətinin böyük uğurlarından biridir. Bu böyük hadisə yalnız ölkəmiz üçün deyil, həm də bütün Qafqaz və Mərkəzi Asiya bölgəsi baxımından xüsusi əhəmiyyət kəsb edir.**

COP29-a ev sahibliyi ölkəmizin iqlim öhdəliklərini gücləndirmək və qlobal iqlim strategiyalarında daha fəal rol oynamaq niyyətini ifadə edir. Son illərdə Azərbaycan hökuməti milli səviyyədə iqlim dəyişmələrinə qarşı mübarizəni gücləndirmək üçün bir sıra strateji proqram və layihələr həyata keçirib: Azərbaycan Respublikasının İqlim Dəyişikliyi Strategiyası, Bərpa Olunan Enerji Mənbələrinin İnkişafı üzrə Dövlət Proqramı, Kənd Təsərrüfatında Davamlı İnkişaf Proqramı. Əsas məqsəd bərpaolunan enerji mənbələrindən daha çox istifadə etmək, tullantıları azaltmaq və karbon emissiyalarını minimuma endirməkdir. COP29 üçün Azərbaycan ambisiyalı məqsədlər irəli sürüb. Bu məqsədlərə karbon sıfır səviyyəsinə çatmaq, su resurslarının səmərəli idarə edilməsi, bərpaolunan enerji mənbələrinin artırılması və neft-qaz sektorunda karbon emissiyalarının azaldılması kimi istiqamətlər daxildir. İqlim dəyişmələri artıq Azərbaycanın təbiətinə və sosial-iqtisadi inkişafına təsir göstərir. Son illərdə ölkəmizdə baş verən təbii fəlakətlər, xüsusən də daşqınlar, quraqlıq və istilik dalğaları iqlim dəyişmələrinin real təsirlərini əks etdirir. Bundan əlavə, Azərbaycanın iqtisadiyyatı böyük ölçüdə neft-qaz sektoruna bağlı olduğundan, bu sahədə karbon tullantılarını azaltmaq həm iqtisadi, həm də ekoloji baxımdan ciddi çağırışdır. Bu sahənin iqlimə təsirini minimuma endirmək üçün alternativ enerji mənbələrinə, xüsusən də külək və günəş enerjisinə keçid sürətləndirilməlidir.

Azərbaycanın iqlim dəyişmələrinə qarşı mübarizəsinin uğuru yalnız dövlət səviyyəsində deyil, həm də cəmiyyətin müxtəlif təbəqələri arasında məlumatlılıq və anlaşmanın artırılmasından asılıdır. Məhz burada iqlim jurnalistikası mühüm rol oynayır. İqlim dəyişmələri ilə bağlı problemləri ictimaiyyətə çatdırmaq, elmi bilgiləri sadə dillə izah etmək və cəmiyyəti qlobal mövzulara cəlb etmək məqsədini daşıyır. Yerli jurnalistlər üçün iqlim jurnalistikası yeni, lakin geniş potensiala malik bir sahədir. Son dövrlərdə jurnalistlər arasında ekoloji mövzulara maraq artıb, lakin bu sahədə yetərli bilik və təcrübənin olmaması bəzən məqalə və hesabatların elmi dəqiqliyini və obyektivliyini zəiflədir. Bu baxımdan, COP29 sammitinə hazırlıq dövrü yerli jurnalistlər üçün yeni biliklər əldə etmək və beynəlxalq təcrübəni mənimsəmək üçün ideal şərait yaradır.

Burada əsas məqsəd iqlim dəyişmələrinə qarşı mübarizədə hər bir fərdin, ictimaiyyətin və dövlətin rolunun dərk edilməsinə kömək etməkdir. Azərbaycan jurnalistləri üçün bu mövzuda dəqiqlik, şəffaflıq və məsuliyyətli yanaşma xüsusilə vacibdir. Beynəlxalq təcrübənin öyrənilməsi, iqlim üzrə məlumatların təhlili və müasir təbliğat üsulları mühüm əhəmiyyət kəsb edir. Hər bir sahədə olduğu kimi, iqlim jurnalistikası sahəsinin də özünəxas sözləri, ifadələri və terminləri mövcuddur. İqlim jurnalistikası sahəsi ilə məşğul olan hər bir müxbir bu "yaşıl lüğət"i bilməli və oxucuları bu istiqamətdə maarifləndirməlidir. İqlim dəyişmələri haqqında yazan jurnalistlərdən daha həssas yanaşma tələb edir. Çünki burada istifadə olunan anlayışlar və sözlər dilçiliyə yeni daxil olur. Bu baxımdan jurnalist iqlim sahəsi ilə bağlı təqdim etdiyi hər mövzuya ilk oxucu gözü ilə yanaşmalı, ifadələri və terminləri sadə dildə izah etməlidir.

COP29-a ev sahibliyi edəcək Azərbaycan üçün "yaşıl lüğət" konsepsiyasının hazırlanması bu baxımdan olduqca vacibdir. Türkiyə "Anadolu" Xəbər Agentliyi tərəfindən dünyada ilk sayıla biləcək "yeşil sözlük" layihəsi ətraf mühit və dayanıqlı inkişaf mövzularında məlumat vermək məqsədilə hazırlanan bir qaynaq kimi önə çıxır. Bu sözlük ekoloji mövzularda istifadə olunan terminləri, anlayışları və izahları əhatə edir. "Yeşil sözlük", yəni "yaşıl lüğət" ilə hədəflənən başlıca nöqtələr ətraf mühit şüuru və ekoloji dayanıqlılıqla bağlı anlayışların açıqlanması, iqlim dəyişmələri, təbiət çirkliliyi, bioloji müxtəliflik itkisi kimi mövzular haqqında məlumat təqdim etmək, bərpaolunan enerji, dayanıqlı kənd təsərrüfatı, tullantıların idarə olunması kimi mövzularda məlumat paylaşımı, cəmiyyətin ətraf mühit məsələlərində daha şüurlu və həssas olmasına kömək etmək kimi məqsədlərdir. Azərbaycanda da bu layihənin icrasına başlanılmalı və ən qısa zamanda "yaşıl lüğət" tərtib edilməlidir. Çünki iqlim dəyişmələri məsələsinə sadəcə COP29 sözündən yanaşmaq düzgün deyil. Bu gün bu sahədə məlumatlılığın artırılması gələcəkdə baş verə biləcək ekoloji fəlakətlərin qarşısını ala bilər. İqlim böhranı ilə davamlı mübarizə aparmaq labüddür. İqlim haqqında yazan jurnalistlərin də başlıca məqsədləri insanları bu ciddi təhlükə barədə maksimum məlumatlandırmaqdan ibarətdir.

Bu gün dünyada cərəyan edən iqlim böhranı olduqca qarışıq və mürəkkəb prosesdir. Bunu bir neçə nümunə ilə izah etmək olar. Məsələn, bir neçə gün əvvəl İspaniyada baş verən daşqınlar nəticəsində son məlumata əsasən 140-a yaxın insan həyatını itirib. Lakin bu il İspaniyada yaşanan mənzərədən fərqli olaraq, 2023-cü ildə ölkə ciddi quraqlıqla üz-üzə qalmışdı. Digər bir nümunə kimi küləyin kinetik enerjisini mexaniki enerjiyə çevirən külək turbinlərini qeyd etmək olar.

Nümunələrdən də bəlli olduğu kimi, iqlim dəyişmələri məsələsi bəzi nüanslarda bir-biri ilə qatı ziddiyyət təşkil edir. Bu təhlükəni hiss edən qurumlar zamanında həyəcan təbili çalıb. İqlim fəlakəti gələcəyimizi təhdid edir. İndiyə kimi bir çox orqan dünyanın gələcəkdə nə kimi iqlim dəyişmələrinə məruz qalmaları ilə bağlı saysız simulyasiyalar hazırlayıb. Bu simulyasiların nəticəsi isə heç də ürəkaçan deyil. Hər halda bu təhlükə qarşısında zamanında tədbirlər görmək sözügedən prosesin müəyyən qədər qarşısını ala bilər. Bunun üçün isə jurnalistlərin üzərinə məsuliyyət düşür və "yaşıl lüğət" kimi layihələrin icra edilməsi olduqca vacibdir. Gəlin "yaşıl dünya" naminə həmrəy olaq!